# Sözün sehrinə qovuşan duyğular

## *"Həyat, zaman, insan" poeması haqqında düşüncələr*

Məlahət Soltanqızının dünyagörüşü, mənəvi mühiti həyat və cəmiyyət problemləri ilə bağlı olaraq həmişə müsəlləhdir. Elə bil ki, o, cəmiyyətə göy üzündən baxır. Həyatda baş verənlərin harmoniyalı və yaxud harmoniyasız, nizamlı ya nizamsız, nə varsa, hamısını görür. "Həyat, zaman, insan" poemasında da məhz cəmiyyətdə gördüyü problemləri bu triadanın - mənəvi üçbucağın müstəvisinə gətirir, ziddiyyətlərin yaranma səbəblərini aydınlaşdırmağa çalışır.

Onu da qeyd edək ki, bu məşhur triada tarix boyu böyük söz adamlarını - mütəfəkkirləri daim düşündürüb. Hətta böyük hərb xadimləri də həyat, zaman və insan problemi ətrafında mülahizələrini müəyyən istiqamətə yönəldib, hərbi gücləri, qüdrətləri ilə cəmiyyəti nizama salmağa, başqa sözlə, cəmiyyəti öz məramlarına tabe olacaq müstəviyə gətirməyə çalışıblar. Belə bir rəvayət salnamədən-salnaməyə keçərək zəmanəmizə qədər gəlib çatıb ki, Dara onun ölkəsinin üzərinə gələn İsgəndərə xəbər göndərir ki, onun yüz minləri keçən ordusu var. Bu sayın qabağında İsgəndər ona güc gələ bilməz. Və deyilənə görə İsgəndər də ona cavab göstərir ki, sürüdə qoyunun çoxluğu canavarı qorxuda bilməz. Bu, o deməkdir ki, ən qüdrətli hərb xadimləri belə dünyanın altını üstünə çevirmək gücündə olsalar da, cəmiyyətin mənafeyinə xidmət baxımından insanlığın taleyüklü məsələlərinə seyirçi olublar. Bu tipli problemlər filosofları da zaman-zaman düşündürüb. Əvvəlki yazılarımda da dəfələrlə demişəm ki, dünyanı fəth edən təkcə İsgəndər deyildi. Əslində, İsgəndərin fatehliyinin əsas qaynağı müəllimi Aristotellə bağlı idi. Ustadı güclü olmayan yetirmənin həyatda nəyəsə nail olacağına şübhə var. Bir sözlə, cəmiyyətin təzadlardan keçən həyatını şərh etmək mümkün qədər bu şərhlərin içərisində cəmiyyətə düzgün yol göstərmək, əslində, filosofların, müdriklərin, alimlərin və nəhayət, şairlərin boynuna düşür. Şubhəsiz bir söz adamı kimi cəmiyyətin taleyi ilə maraqlanan insan münasibətləri ilə bağlı düşüncələrində işıq axtaran müəllif kimi M.Soltanqızı da "Həyat, zaman, insan" poemasında insanlığı düşündürən suallara cavab verməyə çalışıb: ziddiyyətlər haradan və nədən yaranıb? Nə üçün bu gün də ziddiyyətlər davam edir? Xalqlar bir-birinə qənim kəsilir, hətta maddi məqsədlərlə mənafe tələbləri ilə ən doğma adamlar bir-birinin həyatına qəsd edirlər. Elə bu yöndən düşünərək qonşu xalqların bir-birinə düşmən kəsilməsi, birinin digərinin torpaqlarına göz dikməsi, etnoslar arası münaqişələr... bütün bunlar məhz həyatdan gələn təzadların nəticəsi olaraq üzə çıxır.

M.Soltanqızı öz poemasında digər əsərlərində olduğu kimi bir daha "Ya Rəbbim" deyərək Allaha üz tutur. Nəyin cavabını bilmirsə, ziddiyyətləri doğuran səbəbləri aydınlaşdıra bilmirsə, bunun üçün ulu Yaradana müraciət edir. Onun çox maraqlı yanaşması var. O, özünün də yazmağının səbəbini Tanrının rizası kimi qəbul edir. Və belə düşünür ki, İlahi hökmün gücü olmasa, nəinki daşı daş üstə qoyular, heç söz də sözün arxasınca şairin mənəvi mühitindən doğulub dünyaya gəlməz. Əlbəttə, burada mistik düşüncənin də təsiri az deyil. Hər halda müəllif özünün ilham mənbəyi kimi İlahi qüdrəti daha uca tutur.

Şübhəsiz, hər bir sənətkarın ulu Tanrıya müraciəti başa düşüləndir. Bütün çıxılmazlıqlarda insanın Allaha üz tutması təbiidir.

Müəllifin düşüncə imkanlarını təhlil etdikcə belə bir qənaətə gəlmək olar ki, şair üçün böyük sözün ifadəsində böyük istinad vacibdir. M.Soltanqızı lirik-epik janrda qələmə aldığı poemasının ilk səhifələrini demək olar ki, Tanrının tərənnümünə həsr edib: "Ya rəbbim, adınla açdım sabahı, Adınla başladı hər günüm, gecəm Yerin də, göyün də sahibi sənsən Adını dilimdə əzbər etmişəm. Hər qula ruh verib onu yaşadan, Taleyi, qisməti alnına yazan Tanrı özü deyilmi? Əlimə qələm verib, sətirlərə söz düzən, Hər fikrimin sahibi, hər sözümün ağası Tanrı özü deyilmi? Onun hökmü olmadan, Onun fikri olmadan İnsan necə düşünər?

Qələm alıb söz demək Hamının həddi deyil. Sözlərdən dastan qurub, bir xəzinə yaratmaq, Bütün gözəllikləri sözün sehrinə qatmaq, Söz adlı bir dəryanın sularına tor atmaq Tanrının möcüzəsi. Tanrının qüdrətindən yarandı hər kəlməmiz, Biz də adi insanıq Durub söz mənzilində sözdən dastan qurarıq Tanrı hökmü verincə, sözdən çələng hörərəm. Ruhum pərvazlanınca, bir mələyə dönərəm". İnsafən M.Soltanqızının müraciətlərində bir səmimiyyət də var. O, bütün müraciətlərində Tanrının güclü olduğunu, qüdrətli olduğunu, ali olduğunu qeyd edir. Və əlbəttə ki. bu müqayisədə insanı daha xırda, daha kiçik görür. Adi insan desə də, bu adi insanın sözdən necə böyük dastan yaratdığını da çox böyük sevgi ilə yazıya gətirir. Əslinə qalsa, formal olaraq Tanrını möcüzə sahibi, böyük deyə tərif etsə də, insanı bu müqayisədə adilik müstəvisində görsə də əsl həqiqətdə sözlə möcüzə yaratdığı üçün insanın özünü də alilik mərtəbəsinə qaldırır. Və bu yerdə şübhəsiz, Nəsimi də yada düşür. Nəsimi də insanı yaradıcı olaraq qəbul edirdi: "Həqq mənəm, həqq məndədir, həqq söylərəm", - deyirdi. Deməli, M.Soltanqızı yazı tərzi ilə fərqli olsa da, düşüncə baxımından özündən əvvəl dünyada yaşayıb dövranənə keçirmiş ustadların yolunun davamçısıdır.

Şübhəsiz, M.Soltanqızı bir həyat adamı olaraq müəyyən zaman daxilində mövcud olduğunu yaxşı bilir. Həyat və zaman müstəvisində həyatı və zamanı mənalandıran insanın nəyə qadir olduğunu göstərmək üçün sanki özünün taleyindən süzülüb gələn həyat faktlarına istinad edir.

M.Soltanqızı yaxşı bilir ki, bir insan olaraq o da günahlardan xali deyil. Hətta insanın başına gələn müsibətlərin, dərdlərin, xəstəliklərin belə müəyyən günahların nəticəsi olaraq insanın qarşısına çıxdığını da etiraf edir. Deməli, insan həyatda yaşayırsa, öz əməlinə cavabdeh olmalıdır. Amma qeyri-ixtiyarı olaraq yol verdiyi günahların əvəzini daşıyacağına da gərək hazırlıqlı olsun. Ən yaxşısı, elə müəllifin öz dediklərinə istinaddır: "Günahlarım var mənim, Tanrı məni sınayır Çarəsiz dərdləriylə, Tanrı məni sınayır. Hərə bir cür zövq alır, yaşadığı həyatdan Kimi dünya varından özünə yük bağlayır Sanki həyat əbədi Bu dünyada sərvətin əsirinə çevrilib, Yaşamağa dəyərmi? Var-dövlət yaxşıdı, qanan əlində, Qohuma, qonşuya yanan əlində, Var-dövlət yaxşıdı paylaşa bilsən, Yaxşı-yaman gündə haylaşa bilsən".

M.Soltanqızının "Həyat, zaman, insan" poemasının üçlü obrazı əslində, bir vahid obrazda birləşir. Yəni tarix obrazı bu üçlü obrazı özünə ehtiva edir. Tarix göstərir ki, müəyyən zaman əhatəsində yaşayan hər hansı bir tarixi şəxsiyyət bütün güc hüdudsuzluqlarına baxmayaraq, axır ki, bir vaxt gəlir ki, zamanın tələbinə tabe olur. Yəni ömrünü başa çatdırır. Təqribən müəllifin belə bir düşüncəsi əsasdır ki, insan tarix qarşısında hesabat verərkən həyat və zamanla birgə - müştərək bir ömür yaşadığını etiraf etsin. Gərək insan unutmasın ki, tarix donmuş vəziyyətdə olsa belə, həyatı özünə ehtiva edir, insanı əməlinin izi ilə yaddaşına yazır, zamanı isə konkret ünvan olaraq göstərir.

Əlbəttə, müəllifin haqsızlıqlara qarşı etirazı da əsər boyu diqqəti cəlb edir: "Tarix gözümüzdə fırlanıb keçir... Kimlərin ömrünü bitirdi zaman Çox taxtlar yıxıldı, taclar boş qaldı Kimlər itirdi bu ulu dövran Haqqı aramağa tapmadı macal. Alimin taxtında nadan oturdu Pulunun gücünə adam olanlar Alimin haqqını əlindən alıb Alimin sözünü dilindən alıb, Alimin fikrinə sahib olanlar". Cəmiyyətdəki haqsızlıqlar həyat həqiqətlərinin acı səhifəsi olaraq müəllifi düşündürür. Bəzən o, təkcə təxəyyülünə, düşüncələrinə güvənmir, həm də həyatda rastlaşdığı həqiqətləri həyat faktı olaraq sözünə güvənc bilir. Belə olmasaydı, hər hansı bir alimin haqqını mənimsəyənlər olmazdı. İdeya, fikir oğruları doğulmazdı. Alimin düşüncələrinə sahib olub saxta alimlik adı ilə yaşayanlar öz cəzalarını alardılar.

M.Soltanqızı sadə bir peşə adamıdır. Əlbəttə, əgər müəllimliyə sadə peşə kimi baxsaq, bu, belədir. Demək bir müəllim kimi M.Soltanqızı auditoriyada gördüklərini yeni nəsillə klassik düşüncə adamlarının arasındakı fərqi də görür. Onu müasir gəncliyin əxlaqı maraqlandırır. Hətta bir çox hallarda o, yeni nəsil gənclərin yüngül əxlaqi düşüncə tərzləri ilə barışmır. Dırnaqarası yeni düşüncə tərzi onu çox narahat edir. Xüsusilə, o, bir ziyalı kimi, müəllim kimi, ən başlıcası, ana kimi Azərbaycan dəyərlərinin tələblərindən çıxmış qızların haqqında düşünəndə narahatlıqlarını daha qabarıq üzə çıxarır. Şübhəsiz, o, hər bir qızı gələcəyin anası kimi təsəvvür edir. Həyat, zaman, insan müstəvisində əxlaqi dəyərləri ayaqlayan qızın gələcəkdə necə ana olacağını çox narahatlıqla düşüncəsində çək-çevir edir: "Müəlliməm, hərdən mənə Sual verir tələbələr -Bu zəmanə qızlarını dəyişdirən nədi belə? Sinə çöldə, qarın çöldə Yarıçılpaq bud da, bel də... Geyim, boya hər bir kəsin Öz işidir deyib keçdik. Abrımıza qısılaraq başımızı əyib keçdik. Mən cavabsız qoymamaqçün tələbənin sualını Dedim: - Oğul, buna inan Qayğısız böyüməz körpə bir fidan. Qız qönçədir, bir gün açar Böyüdüyü yuvasından bu dünyaya qucaq açar. Hər qızın bir anası var, Sığallayar, süslər onu Başa salar, yaxşı nədi, yaman nədi, Başa salar iman nədi, güman nədi. Saçlarına sığal çəkər, geyindirər alı-şalı Abır-həya nurundan qızına köynək biçər. Qızına ətək tikər, Zamanmı dəyişdi, bizmi dəyişdik Xarici geyimlər Yol açdı bizə. Millilik çıxdı yaddan... Ətəklər də qısaldı, köynəklər də qısaldı Abrımız getdi əldən". Müəllif hiss olunduğu kimi bu hissənin axırında az qala açıq-aşkar gözünün qabağından keçən mənzərəyə üsyan edir, nəinki mənəvi düşüncə baxımından, forma baxımından da gənc nəslin milliliyi itirməkdə olduğunu görür və onların geyimlərini təsvir edir. Hətta bəzən keçmişin dəyərli adətlərini də yada salır. O, qızlar üçün ən dəyərli libasın abır-həya olduğunu diqqətə çəkir. Bütün bunlarda əlbəttə, qloballaşan dünyanın gətirdiyi problemlərin mahiyyəti çözülür.

Ziyalının bəlkə də, ən ümdə missiyasıdır ki, cəmiyyətdə mənəvi tarazlığın pozulmasına qarşı dursun. Bu mənada M.Soltanqızının təhlilə cəlb etdiyimiz əsərində mövcud mənzərənin təsviri ilə şair narahatlığını hiss etməmək mümkün deyil.

Əlbəttə, müəllif bütün hallarda həyatın nə qədər dəyərli olduğunu, həyatı insan kimi yaşamağın nə demək olduğunu gənclərə anlatmağın vacibliyini diqqətə çəkir və belə bir ənənəvi düşüncəni yada salır ki, hər bir insan özünün halal, həqiqi həyatını təmin etmək üçün gərək zəhmətə qatlaşsın, torpağa dönsün. Onun arzuladığı nə varsa, öz zəhməti sayəsində torpaq ona bəxş edə bilər. Təbiidir ki, bu yanaşma ilə müəllif kişilərin də, qadınların da həyatlarını mühafizə imkanlarını göstərir. O ailə xoşbəxtdir ki, onun mənəvi mühitində ailə ənənələrinin əsasları qorunur. Müəllif yazır: "Həyat dəyərlidi, qədrini bilsən Bir gülü dərmək üçün, dərib iyləmək üçün Dizlərini qatlayıb, torpağa baş əyirsən Qadınlar gözəldi öz ismətilə, Qadınlar gözəldi ləyaqətilə Abırdan, həyadan geydiyi libas Analıq adını kölgədə qoymaz". Müəllif həyat, zaman, insan üsbucağını açarkən tarixə nə qədər önəm verirsə, tarixi yaradan insanın taleyinə də bir o qədər önəm verir. Xüsusilə, həyatın təminatında qadını heç də kişidən imkansız və gücsüz hesab etmir. Onun düşüncəsinə görə, həyatın cəlbedici, yaşarı olmağının bir əsas tərəfi də məhz qadınlarla bağlıdır. Əlbəttə, tarixən, hətta klassik ədəbiyyatda belə bir çox sənətkarlarımız qadının adını uca tutublar. Amma ayrı-ayrı sənətkarların yaradıcılığında qadınla bağlı məqamlar da az deyil.

Məlum məsələdir ki, müharibələr insanların taleyinə çox böyük faciələr bəxş edir. Və bu da sirr deyil ki, müharibənin demək olar ki, əsas ağırlığını hərbi güc timsalı olaraq kişilər çəkir. Döyüşən, vuruşan ordunun əsas güc hissəsi kişilərdən ibarətdir. Ancaq atasını, qardaşını, ərini, oğullarını müharibəyə göndərən qızın, bacının, qadının, ananın çəkdiklərini - mənəvi iztirablarını kişilərin döyüşdən aldığı yaralardan aşağı tutmaq mümkün deyil.

M.Soltanqızı həyatı bütün ağrıları ilə kompleks görür və gördüyü kimi də oxucuya çatdırmağa çalışır.

*(Davamı var)*